# Yeni tarixin ilk səhifəsi: seçki və quruculuğun strateji məqamları

### III məqalə

## 2003-cü ildə söz vermişdi...

"Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm"...

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir...Biz hələ də ümidlərimizi itirmirik...Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

"Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir".

Hamısını yerinə yetirdi!

## 2024-cü ildə bəyan etdi...

Prezident İlham Əliyev dünən andiçmə mərasimindəki nitqində ilk dəfə dövlət başçısı seçilərkən xalq verdiyi vədlər içərində ən önəmlisi olan ölkənin ərazi bütövlüyünün və suverenliyinin artıq təmin edildiyini böyük öyünc və rəsmi təntənə ilə vurğuladı: "Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan–Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir".

***2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik.***

***(Prezident İlham Əliyevin 14 fevral 2024-cü il tarixli andiçmə mərasimindəki nitqindən)***






Müstəqillik illərində qazanılmış tarixi nailiyyətlərdə Xalq – Lider birliyinin xüsusi rolunu xatırladan dövlət başçısı bu tandemin gündən-günə daha ciddi önəm daşıdığını qeyd etdi: "Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır. Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır. Əlbəttə, bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır və biz bunu demək olar ki, gündəlik həyatda görürük".

## Andiçmənin türk siyasi qavramı haqqında

Türk toplumlarında qədimdən dövlət başçısının and içməsi çox müqəddəs sakral hadisə kimi qəbul edilmiş və ona böyük önəm verilmişdir. Xalq arasında bu mərasim başçının hamının qarşısında "kişi sözü verməsi" kimi qiymətləndirilmişdir. Çoxsaylı araşdırmalarda vurğulanır ki, türk toplumlarında, o cümlədən Azərbaycanda seçilmiş dövlət başçısının andiçmə mərasimi xüsusi mənası olan rituallarla keçirilmişdir. Məsələn, seçilmiş Bəyi ətrafında olan digər bəylər əlləri üstünə qaldırmış və bir sıra suallar vermişlər. Həmin suallar sırasında başçının hansı müddətə bu vəzifədə qalması ilə bağlı olardı. Aldıqları cavabdan asılı olmayaraq, türk toplumu və onun bəyləri başçının konkret əməllərinə baxardılar. Əgər başçı uğurludursa və toplumun rifahını və təhlükəsizliyini təmin edirdisə, uzun müddət vəzifəsində qalırdı.

Bu ənənə müxtəlif formalarda əsrlərlə türk xalqlarında öz yerini qorudu. Burada əsas siyasi məqamlar ondan ibarətdir ki, birincisi, dövlətə seçilən başçının fəliyyəti xalqın ədaləti, rifahı və təhlükəsizliyinə göstərdiyi ximətlə qiymətləndirilirdi, ikincisi, dövlət rəhbərini əhatə edən toplumun xüsusi nümayəndələri ona ciddi dəstək verirdilər, üçüncüsü, başçı daim xalq (toplum) qarşısında məsuliyyətini hiss edirdi. Bütün bunların yekun rəmzi kimi bəylər andiçmə mərasimində başçını qolları üstünə qaldıranda onun boynuna xüsusi rəngdə şərf dolayardılar ki, bu da vəzifənin müqəddəsliyinin və yüksək məsuliyyətin rəmzi olsun!

İndi bütün bu proseslərin dərin məntiqi və mənası saxlanmışdır. Lakin proses çox müasirləşmişdir. Prezidentin Qurani-Kərimə əl basması və Bayraq qarşısında diz çöküb onu öpməsi bütün mənaları, sakral mesajları və siyasi anlamları özündə ehtiva edir. Azərbaycan Prezidenti yalnız Quranın altından keçir və yalnız Bayraq qarşısında diz çökür! Dünyada başqa heç bir qüvvə Azərbaycan rəhbərini diz çökməyə məcbur edə bilməz!

Xüsusilə, Ulu Öndərdən sonra İlham Əliyev Prezident kimi qədim Azərbaycan dövlətçiliyinin bu prinsiplərini tam olaraq gözləyir! İndi cənab Prezidentin and içməsi bütün xalqa qürurla yanaşı, ümid, inam və çalışqanlıq ruhu verir! Hər bir Azərbaycan vətəndaşı İlham Əliyevin Prezident kimi and içməsinə həyatın çox ciddi bir hadisəsi kimi baxır! Bu Andiçmə həm şərəf verir, həm də məsuliyyət hissimizi qat-qat artırır!

Bunun səbəblərindən biri də müstəqil və müasir Azərbaycan siyasi tarixində ilk dəfə olaraq dövlət başçısının ərazi bütövlüyünün tam bərpası və suverenliyin tam təmin edilməsi şəraitində and içməsidir. Bu reallığın rəmzi İlham Əliyevin eyni dərəcədə dövlət başçısı, Lider və Ali Baş Komandan olaraq əlini müqəddəs Qurani-Kərimə basması və Bayrağı ürəkdən ölçməsidir. Bayrağı İlham Əliyev Qarabağın hər azad edilmiş yerində gözünün üstünə qoymuşdur. İndi həmin hadisələrin Azərbaycan miqyasında təkrarı baş verir! Prezident and içir, vəd verir və aktiv fəaliyyətə səsləyir! Bayraq Prezident İlham Əliyevdədir! Xalq Bayraq kimdədirsə, ona dəstək verir! Bu da qədim türklərdən gələn dyişməz bir ənənədir!

Bütün bunlara görə, "Breaking News Network Worldwide" adlı beynəlxalq internet nəşrinin Prezident İlham Əliyevin qalib gəlməsini "xalq üçün qələbə" adlandırması çox səmimi və doğrudur! Nəşr bunu həm də yüksək seçici fəallığı ilə əlaqələndirməkdə haqlıdır. İndi Andiçmə mərasimi fonunda "xalq üçün qələbə" ifadəsinin anlamlarına baxaq.

## "Xalq üçün qələbə": siyasi, geosiyasi və quruculuq anlamları

Azərbaycanda seçki prosesi başa çatmışdır. Prezident İlham Əliyev 92,12% səs toplayaraq yenidən dövlətə başçı seçilmişdir. Dünyanın müxtəlif ölkələrinin KİV orqanları bu seçkini Azərbaycan dövləti üçün strateji əhəmiyyəti olan hadisə kimi təqdim etməkdədirlər. "Breaking News Network Worldwide" adlı beynəlxalq internet nəşri Prezident İlham Əliyevin qalib gəlməsini "xalq üçün qələbə" adlandırmışdır. Bunu yüksək seçici fəallığı ilə əlaqələndirmişdir.

Müasir mərhələdə bu ifadəyə tez-tez rast gəlmək olar. Demək olar ki, əksər ölkələrdə dövlətə başçı qələbəsini "xalq üçün qələbə" kimi təqdim edir. Lakin fəaliyyətin gedişatı göstərir ki, burada reallıqdan çox təbliğat ementi varmış. Məsələn, indi bir sıra müstəqil dövlətlərdə liderliyin "xalqın xidmətçisi" növündən bəhs edirlər. Ancaq gerçək proseslər göstərir ki, "xalqa xidməti" liderlərin hərəsi bir cür başa düşür.

## Siyasi anlam

Təbii ki, bütün bunların fonunda bütövlükdə dünya üçün maraqlıdır ki, həqiqi mənada liderin xalqa xidmətinin məzmununu hansı xüsusiyyətləri özündə birləşdirməlidir? Bu anlamda da "xalq üçün qələbə" nə deməkdir? Bu ifadənin ən yaxşı dərkini Prezident İlham Əliyevin fəaliyyətinin məzmunundan görmək mümkündür.

Doğurdan da Azərbaycan Prezidentinin seçkidəki qələbəsi birbaşa xalq üçündür! İlham Əliyev hər addımında Azərbaycan xalqının maraqlarını nəzərə almışdır. Bu əsasda Prezident kimi kifayət qədər standart olmayan, gözlərin alışmadığı təşəbbüslər irəli sürmüş, davranışları ilə cəmiyyətə yeni siyasi ruh gətirmişdir. Nümunələr kifayət qədərdir.

Hər şeydən öncə, İlham Əliyev Azərbaycanda siyasi liderliyin standartlarını xalqın mənafeyi naminə yeniləşdirən liderdir. Məsələn, o, quruculuq prosesini reklam etmədən, strateji məqsədini kimsəyə açıqlamadan, lakin qətiyyət, inam və yüksək məntiqlə aparan lider oldu! Bu, Cənubi Qafqaz kimi bir regionda asan məsələ deyildir. Xüsusilə müxtəlif dairələrin qondarma bəhanələrlə Azərbaycana təzyiq göstərmək cəhdlərinin mövcud olduğu bir şəraitdə strateji planları davamlı həyata keçirmək böyük siyasi-diplomatik və idarəetmə məharəti tələb edir. Burada siyasi baxımdan çox incə bir məqam vardır.

Məsələ ondan ibarətdir ki, bu kimi böyük vəzifələrin öhdəsindən liderin hansı şərtlər daxilində gələ biləcəyi nəzəri və praktiki baxımdan açıq məsələdir. Ortaq mövqe belədir ki, lider mütləq real olaraq xalqa arxalanmalıdır. Bunun üçün isə əsl mənada xalq üçün çalışmaq gərəkdir. Lakin eyni zamanda, xalqın da öz liderinə yüksək inamı lazımdır. İlham Əliyev bu üç komponenti harmonik birləşdirərək xalq üçün çalışdı və qələbəsini də xalq üçün etdi! "Xalq üçün qələbə"nin siyasi anlamında bu tezis əsas yeri tutur.

## Geosiyasi anlam

Məsələnin geosiyasi aspekti daha mürəkkəb faktorları nəzərə almağı tələb edir. Çünki hazırda regional və qlobal geosiyasi dinamikada dolaşıq və konfrontasiya ruhlu tendensiyalar az deyildir. Böyük dövlətlərin minbir hiylə ilə regional reallığa deyil, öz maraqlarına uyğun mənzərə yaratmaq cəhdləri ara vermir. Belə bir şəraitdə Cənubi Qafqazda lider olmaq və həm də perspektivli geosiyasi kurs həyata keçirmək olduqca məsuliyyətli, ağıllı və dərin elmi əsasları olan siyasi fəaliyyət tələb edir.

Prezident İlham Əliyev 21 ildir ki, bu istiqamətdə son dərəcə bacarıqlı olduğunu, böyük uğurlar qazandığını həm xalqına, həm də dünya ictimaiyyətinə sübut etmişdir! İlham Əliyev çıxışlarında daima özü üçün mühüm saydığı iki məqamı vurğulamışdır. Onlardan biri Ulu öndər Heydər Əliyevin siyasi varisi kimi dövlət quruculuğu xəttini davam və inkişaf etdirmək, Ümummilli liderin siyasi kursuna əməl etməkdən ibarətdir. Digəri isə xalqın mənafeyini gözləmək, milli maraqları təmin etməkdir.

Bu iki faktorun birliyində İlham Əliyev siyasətinin hər bir hissəsinə məzmun vermişdir və praktiki olaraq onları qətiyyətlə və uğurla həyata keçirmişdir. O cümlədən, regional və qlobal miqyaslarda geosiyasi aspektdə fəaliyyətində bu mövqeni səmərəli olaraq dövlətlərarası münasibətlərə proyeksiya edə bilmişdir. Bunun nəticəsi kimi daxili islahatlarla yanaşı, enerji strategiyasında, müxtəlif beynəlxalq təşkilatlarda, çoxlu sayda dövlətin milli təhlükəsizliyinin təmin edilməsində, türk xalqları arasında əməkdaşlığın yeni səviyyəyə yüksəldilməsində misilsiz xidmətləri olmuşdur.

Məhz İlham Əliyevin fəaliyyəti sayəsində Cənubi Qafqaz xalqları hələlik müharibədən uzaqdırlar. Azərbaycan Prezidenti xalqların rifahı və təhlükəsizliyi naminə addımlar atdığını müxtəlif geosiyasi xarakterli tədbirlərdə ifadə etmişdir. Onun "Qafqaz Evi"ni dirçəltmək, Türk Dövlətləri Təşkilatını yeni səviyyəyə çatdırmaq, Qoşulmama Hərəkatı çərçivəsində 120-dən çox xalqın rifahı və əməkdaşlığına uyğun olan təşəbbüslərlə çıxış etmək kimi fəzilətli addımların kökündə Liderin xalqı üçün çalışması faktı dayanır! Bunu xaricdə də, deyəsən dərk etməyə başlamışlar!

Hazırda Cənubi Qafqazda geosiyasi dinamikanın xalqların xeyrinə ritmləşməsi İlham Əliyevin böyük töhfəsidir. Bir dövlət başçısı və lider kimi öz xalqının maraqlarını hər şeydən üstün tutmasının geosiyasi arenada ən gözəl təsdiqidir! Belə bir Prezidentin and içməsi həm də xalqın öz Liderinə sonsuz inamının təntənəsidir! İlham Əliyev xalqına arxalanaraq xalqı üçün And İçir!

2003-cü ildən başlayan bu mərasim təcrübəsi göstərir ki, Prezidentin Andı həm də reallıqdır! Bu And dövlət başçısının öz xalqı qarşısında məsuliyyətini dərindən anlaması deməkdir! Bu And İlham Əliyevin yeni tarixi mərhələdə Azərbaycan xalqı, Azərbaycan dövləti və hər bir Azərbaycan insanı üçün strateji hesab edilən vəzifələrin öhdəsindən həmişə olduğu kimi məharətli siyasətçi, təəssübkeş, yaradıcı və yüksək strateji təfəkkürlü Lider və, nəhayət, azərbaycanlılar üçün şox qiymətli olan kişi kimi gələcəkdir! Nəhayət, Prezidentin sözü onun mötəbər imzasıdır.

## Quruculuq anlamı

Bu məqam andiçmə mərasiminin bütün anlamlarının təməlində dayanır. Çünki Prezident İlham Əliyevin bütün uğurları konkret quruculuq prosesi ilə bağlıdır. Bu mənada andiçmənin hər bir incə məna çaları Prezidentin yeni tarixi mərhələdə hər an həyata keçirəcəyi quruculuq faktlarında öz rəmzi ifadəsini və duyğusal-mənəvi coşqusunu tapacaqdır. Artıq biz "müstəqil dövlət quruculuğunun İlham Əliyev təcrübəsi" fikrini qətiyyətlə deyə və onu müxtəlif aspektlərdə təhlil edə bilərik!

Bu quruculuq möhtəşəm nəticələrlə reallaşacaqdır. İlham Əliyevin seçki platformasında ifadə etdiyi strateji xarakterli vəzifələrin işığında bunu aydın görə bilərik. Orada müasir güclü dövlət və güclü cəmiyyətin qurulması üçün bütün müddəalar yer almışdır! Həmin müddəalar yaxın perspektivdə Azərbaycan dövlətçiliyini çox böyük uğurlar və nailiyyətlər gözlədiyini ifadə edirlər.

Bu prosesdə cəmiyyətin, hər bir vətəndaşın üzərinə də böyük məsuliyyət düşür. Prezidentə öz fəallığımızla, dövlətçi əməllərlə, milli təfəkkürlə bəşəri mədəni dəyərlərin harmoniyasına nail olmaqla, yüksək təhsilli, dilinə, dininə və mədəniyyətinə yüksək sayğısı olan insan kimi dəstək verməliyik. Quruculuq kollektiv işdir. Lider onun memarı, müəyyənedicisi, strateji təşkiledicisi və bütün mənalarda aparıcısıdır.

Prezidentimiz xalqımızın indiki etimadının cavabında yenidən And İçdi! Yaşa və yarat cənab Prezident! Yaşa və yarat ki, Azərbaycanın müstəqil güclü dövlətçiliyi daim yüksək zirvələrdə olsun!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***